*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 3-10*

# DİLÇİLİK

https://doi.org/10.62837/2026.5.3

Fil.f.d. **AYTƏN YUNIS QIZI HACIYEVA**
Azərbaycan Dillər Universitetinin
Ümumi dilçilik kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru
ayten-haciyeva@yandex.ru
**Orcid: 0009-0002-8837-6186**

## DİLİN TİPOLOJİ TƏKAMÜLÜ, TİPOLJİ MODİFİKASİYALAR VƏ BİOGENETİK QANUN

**Açar sözlər:** biogenetik qanun, stadial təkamül ideyası, tipoloji modifikasiya, ontogenez, filogenez
**Key words:** Biogenetic law, the theory of stadial development, typological modifications, ontogeny, phylogenetics
**Ключевые слова:** биогенетический закон, идея стадиального развития, типологические модификации, онтогенез, филогенез

Dillərin struktur təkamülünün tədqiqi çərçivəsində bir sıra məqamların, o cümlədən ontogenez və filologenez proseslərinin paralleliyini, habelə istənilən sistemin inkişaf dinamikası və trayektoriyasının fəlsəfəsini də əlaqəli şəkildə araşdırmağı labüd edir. Bu çərçivədə tipoloji tədqiqatlarda uşaq dilinin təkamülü mərhələlərinin izlənilməsinə marağın artmaq üzrə olduğunu anlamaq və əsaslandırmaq mümkündür. Eyni zamanda filogenez prosesinin bəşər dilinin tərəqqisinin, ümumiyyətlə, tərəqqi fəlsəfəi çərçivəsində izlənilməsi də anlşılandır. Bu baxımdan, A.Şleyxerin öz tipoloji görüşlərində Ç.Darvinin təkamül nəzəriyyəsindən və habelə Hegelin dialektika təliminə əsaslanmasını xatırlatmaq kifayətdi. (A.Şleyxerin tipoloji görüşlərini təsir edən faktorlar haqqında daha ətraflı bax: [3]).

Dil sistemində baş verən dəyişiklərin bir çoxunun dolğun və hərtərəfli izahını axtaran tədqiqatçılar bəzi hallada linqvistik tədqiqatların ortaya qoyduqları müddəa və faktlarla kifayətlənməyib dilçiliyin digər elmlərlə kəsişən maraqlarının nəşət tapdığı aralıq tədqiqat sahələrini yaranmasını sanksiyalaşdırırlar.Bu səbəbdən də dilçilik araşdırmalarında psixologiya, sosiologiya, antropologiya, tarix, məntiq və eləcə də təbiət elmlərinin nəticələrindən yararlanması müasir linqvistik tədqiqatların təhlil normalarına çevrilmişdir.

Konkret olaraq, tipolji təkamül nəzəriyyəsi fonunda aparılan araşdırmalardan çıxış etsək, belə bir vəziyyətin çox sadə və məntiqi əsaslandırmasının olduğunu

görürük. Belə ki, bəzi linqvistik proseslərinin təhlil və dəyərləndirməsinin açar" dilin tarixi mərhələsindən öncəki dövrlərə gedib çıxa bilir. Bu zaman tədqiqatçıların istinad götürə biləcəyi mənbələr qismində, ilk növbədə, ontogenestik tədqiqatlar və filogenestik ehtimalllar çıxış edə bilərlər.

Xatırladaq ki, **ontogenez** (yunancadan təcüməsi "varlığın, fərdin doğulması, yaranması" deməkdir) istilahı növün inkişaf prosesinin terminoloji nominasiyasına xidmət edən filogenez istilahından fərqli olaraq, ayrılıqda götürülmüş fərdin inkişafı prosesinə işarə edir [10]; [11]. Bundan fərqli olaraq isə, **filogenez** termini (yunan dilində phyle "növ, sinif, tayfa", genesis isə "doğulma", "yaranış", "meydana gəlmə" mənalarını ifadə edir) haqqında bəhs etdiyimiz ibogenetik qnunun yaraerdıılaından olan E.Hekkel tərəfindən 1866-ci ildə irəli sürülmüşdür. Adından da bəlli olduğu kimi, bu istilah növün yaranış və təkümülü prosesinin izlənilməsinin nomisiyasına xidmət edir [16]; [17].

Birincilərin insan psixikasının təkamülü problemlərini əhatə etməsindən çıxış etsək, burada psixoloji araşdırmaların mühüm rol oynadığını qeyd edə bilərik.Sonuncuların (yəni, filogenestik ehtimalların) isə primitiv təfəkkürlü tayfa dilləri üzərində müşahidələrin önəmli rol oynamasını nəzərə alsaq, burada tarix və antropologiya elmlərinin ortaya qoyduğu faktların mühüm əhəmiyyəti ortaya çıxar. Lakin bununla bərabər, ontogenestik və filogenestik müşahidə və məlumatların əlaqələndirilməsində müstəsna rol oynayan biogenetik qanun müddəalarının dilçilik təhlillərinə tətbiqi vacibliyi də danılmazdır. Belə ki, məhz, bu qanunun açıqladığı reallıq dilçilərə ontogenez və filogenez paralelliyindən danışmaq inkanı tanımışdır.Bu isə, öz növbəsində,linqvistik təhlillərin təbiət elmlərinin nailiyyətlərindən yararlanamasının əhəmiyyətini ortaya qoymuşdur.

Xatırladaq ki, "hər bir canlı orqanizmin fərdi inkişafının, ümumilikdə, onun əcdadlarının və ya sinfinin keçdiyi inkişaf yolunu eynilə təkrarlaması" həqiqətinə istinad edən Biogenetik qanun 1866-cı ildə alman alimi E.Hekkel tərəfindən irəli sürülmüşdür [4]. Lakin oxşar müddəaların iki öncə F.Müller tərəfindən də səsləndirilməsindən çıxış edən ardıcılları bu qanunu digər adı ilə həm də Hekkel – Müller qanunu olaraq nəzərdən keçirməyə başlamışlar Onu da qeyd edək ki, adıçəkilən araşdırmalarda Ç.Darvin ideyalarına istinad edildiyini diqqətdən qaçırmayan müasirləri adı çəkilən qanunu həm də Hekkel – Müller – Darvin qanunu olaraq da adlandırırlar [3].

Təbiət elmlərində bir növ inqilab effekti yaradan bu qanun tez bir zamanda digər əlaqəli elm sahələrinə sirayət etməyə başlamışdır. Psixoloji təhlillərə tez bir zamanda yol açan bu müddəaların linqvistik araşdırmalarda öz təsirini göstərməsi qaçınılmaz idi. Sözsüz ki, biogenetik qanunun dil sistemi materialına tətbiqi zamanı onun obyektiv olaraq ortaya qoyduğu müddəaları mütləqləşdirmək olmaz. Belə ki, biogenetik qanunun filogenezin ontropogenezdə təkrarlıanması ideyasının mütləqləşdirilməsi K.Byulerin yaradıcılığında olduğu kimi, müəyyən mütləqləşdirmələrə yol

açа bilərdi. Xatırladaq ki, analoji yanaşmanın, yəni filogeneizin ontogenezə birbaşa ekstrapolyasiyasına etiraz edən psixoloqlar (məs:S.Rubinşteyn) belə biologizatorluğun ifrat yanaşma olduğunu xüsusilə vurğulamışlar (daha ətraflı bax: [13]).

(Bir qədər haşiyəyə çıxıb qeyd edək ki, Biologizatorluq dedikdə "sosial elmlərdə mövcud olan xüsusi bir cərəyan nəzərdə tutulur. Bu cərəyana əsasən, sosial münasibətlər və sosial faktorlar bioloji hadisə və proseslərə istinad edir [ 5]).

Halbuki, birbaşa ekstrapalyasiyanın aparılmaması şəraitində biogenetik nəzəriyyə təkcə ontopsixoloji nyuansların aydınlaşdırılmasına deyil, ontolinqvistik xarakterli sualların cavablandırılmasına bilavasitə yardımçı ola bilər.

Biogenetik qanunun psixologiyada və eləcə də dilçilikdə tətbiqi zamanı buraxılan ən böyük yanlışlıqlardan biri də təkamül mərhələləri arasında əlaqənin gözardı edilməsi kimi qeyri-səhih yanaşmadır. Konkret olaraq,K.Byulerin qınaq obyekti olan psixo- və antropolinqvistik dəyərləndirmələri arasında təkamül mərhələləri arasında keçid əlaqəsini, üzvi bağlılığı görməməsi bu qəbildən yanlışlıq sayıla bilər(daha ətraflı bax: [13]).Bununla belə ontolinqvistik tədqiqatların ortaya çıxardığı faktlar və habelə primitiv təfəkkürlü tayfaların dili üzərində aparılan müşahidələr ontogenezin filogenezin qisaldılmış, müəyyən qəlibdə modelləşdirilmiş təkrarı olması fikrinin doğruluğunu tam əyaniliklə sübuta yetirir (ətraflı bax: [6]).

Tipoloji araşdırmalarda biogenetik qanunun tətbiqi məsələsinə gəlincə, onu qeyd edək ki, burada məsələyə bir neçə rakursdan yanaşmaq doğru olardı. 1) stadial inkişaf modelinin ontogenez – filogenez paralelliyinə şərti ekstrapalyasiyası; 2) tipoloji təkamül prosesindəki labüd tipoloji modifikasiya faktlarının ontogeneztik materiallara əsasən təhlili.

İlk olaraq onu qeyd edək ki, onu qeyd edək ki, az inkişaf etmiş tayfa dillərinə istinad etməklə və habelə sillogizm əsaslı dəyərləndirmələrdən çıxış etməklə filogenez sahəsində aparılan təhlil və araşdırmalar bəşər dilinin yaranış və inkişaf mərhələləri haqqında ümumi təsəvvür əldə etməyə yardımçı olur. Qısaca olaraq, onu xatırlatmaq kifayətdir ki, qədim insanın ilk "sözləri" ("söz" termin kimi burada şərti olaraq işlənmişdir – A.H.) fonetik "qılaf" və semantik tutum baxımından tam mənada diffuzluq nümayiş etdirirdi.

V.İ.Koduxovun sözləri ilə desək, "*qədim insanın ilk ünsiyyəti intonasiya və jestlərlə bütövləşmiş diffuz xarakterli söz – cümlələrdən ibarət idi*" [8; 56]. Başqa sözlə, qədim insanın eyni səs kompleksinə fərqli semantik yük "geyindirməsi" əsas etibarilə onu və onun adresatını (adresatlarını) əhatə edən fiziki kontekstdən və danışanın ruh halını əks etdirən emosional tərtibatdan (yəni, jest, ton və intonasiyadan) asılı idi. Semantik diffuzluğun digər aspektləri "İbtidai təfəkkür" adlı əsəri ilə humanitar elmlər sahəsində yeni cığır açmış Levi – Brülün araşdırmasında qeyd edilir (daha ətrafl bax: [9]). Belə ki, alim qədim insanın təfəkkürünün sinkretikliyinin onun dilinin vahidlərinin sinkretizmində əks olunmasının labüdlüyü və tam məntiqəmüvafiqliyini sübuta yetirmişdir.

Xatırladaq ki, məhz, ilkin sinkretiklik faktı erkən türk dili mərhələsində müşahidə edilən faktlar sırasında yer alır (məsələn: **dad** *(dadmaq*) – **dad** (*yeməyin dadı*), **ac** (*acmaq*) – **ac** (ac – *yalavac, ac adam* və s.) və s.). Onu da əlavə edək ki, S.D.Katsnelsonun da qeyd etdiyi kimi, "*ilk sözlər nə fel, nə də isimlər olmuşlar. İlk sözlər bütöv* (sistemli – A.H.) *əşyaların adlarını ifadə etməklə onların* (əşyaların – A.H.) *xarici əlamətlərini və onlar üzərində fəaliyyətləri əks etdirdilər*" [7].

Növbəti təfəkkür mərhələsində ətraf aləmdə baş verən proses və reallıqların nominasiya vahidləri və kinatika hesabına izahının mümkünsüzlüyü daha abstrakt dil vahidlərinin meydana gəlməsini sanksiyalaşdırdı. Bunun nəticəsində müasir anlamında "qrammatika" istilahının təfsirinə az və ya çox dərəcədə uyğun gələn proseslərinin reallaşması mümkün oldu. Ontogeneztik müşahidələrin filogenestik ehtimallar üçün vacib material təqdim etməsi reallığından çıxış edən M.Qrammonun mülahizələri xüsusi maraq doğurmaya bilməz. Dilçi yazır: "*Əgər böyük sayda uşaqların dil xüsusiyyətlərini bir araya yığsaq, onda bir növ bəşər dillərində olmuş və olacaq dəyişiklikləri əks etdirən qrammatikanın tərtibi mümükün ola bilər*" [19; 9].

Eyni mövqedən çıxış edən K.Byuler də ontogenezin filogenezi təkrarlaması reallığından çıxış edərək yazırdı: "Bizim bəşər dilinin yaranma mərhələsində izləmək imkanını müşahidə etmək üçün yeganə imkanımızı məhz, uşaq (yəni, uşaq nitqi – A.H.) təqdim edir" [19; 3]. Deməli, uşaq dili üzərində araşdırmalar bəşər dilinin yaranış xüsusiyyətləri ilə bağlı maraqlı informasiya mənbəyi olmaqla yanaşı, bəşr dilinin keçdiyi tipoloji təkümü yolu ilə bağlı müəyyən əsaslandırlmış məlumatların əldə edilməsi üçün avtoritet məxəz rolunda çıxış edə bilər. Belə ki, ontogenestik məlumatlar da eynən primitiv xalqların dili üzərində aparılan araşdırmaların nəticələrini təkrarlamaqla dil mənimsəməsinin sadədən mürəkkəbə doğru getdiyini ortaya qoyur. Məlum olduğu kimi, uşaq (eynən əcdadlarımız kimi) diffuz səs-kompleksləri ilə ünsiyyət qurmağa başladıqdan sonra, sözlərlə, daha sonra söz-cümlə tipli konstruksiyalarla danışır (daha ətraflı bax: [18] ).

Növbəti mərhələdə qrammatik markerləri mənimsəməyə başlayan azyaşlı üçün flektiv quruluş elementlərini mənimsəmək daha çətin olur. Onu da əlavə edək ki, uşaq dili sahəsində ən görkəmli mütəxəssislərdən sayılan A.M.Şaxnaroviçin də qeyd etdiyi kimi, ilk mərhələdə uşaq sözü bir bütöv kimi qəbul edərək onu morfoloji üzvlənməyə məruz qoya bilmir. [18; 29].Məhz, bu cəhət uşağın dil mənimsəməsindəki həmin mərhələsini filogenestik proseslərin erkən stadiyası ilə eyniləşdirir.

Xatırladaq ki, "İnsan dilinin yaranması və ilkin inkişafı" adlı məşhur tədqiqatında A.A.Leontyev bu məqama toxunaraq bildirir ki, bütün əldə edilən real dil faktları morfemlərin birmənalı şəkildə bəşər dili təkamülünün növbəti mərhələsində yaranmasına şübhə yeri qoymur (bax: [10]).Ontogenestik araşdırmalarda yer alan və tipoloji modifikasiya proseslərini xatırladan faktlara istinadən bu mühikimənin alternativsiz həqiqət olduğunu əminliklə söyləmək müm-

kündür. Məsələn, misirli uşaqların ərəb dilini mənimsəməsini müşahidə etmiş A.Marqaret Omar nəinki azyaşlıların, hətta 15 yaşlı yeniyetmələrin ən çox istifadə etdikləri isimlərin belə, cəm formalarının düzəldilməsində çətinlik çəkdiklərini qeyd etmiş və ontogenezdə yer alan həmin çoxsaylı səhvlərə əsasən, bu kateqoriyanın sözügedən dilin strukturunda ən qəliz və gec qavranılan qrammatik kateqoriya olması qənaətini səsləndirmişdir [15; 150-151]. Rus və ərəb dilləri əsasında aparılan ontogenestik müşahidələrin ortaya qoyduğu linqvistik faktlar da iltisaqi mexanizmə müraciət tendensiyasının,məhz,təfəkkür proseslərindən qaynaqlandığını düşünməyə əsas verir. Belə ki, rus dilçisi A.Qvozdevin bu dildə danışan uşaqların nitqindən gətirdiyi nümunələr (məs: «**шел**» yerinə «**шелел**») «sözün səs tərkibindən morfemin üzvlənərək ayrılması»nın (kursiv bizimdir – A.H.) azyaşlı individin dil qavrayışı üçün xarakterikliyini üzə çıxarmış olur. [18 ;36].Deməli, belə məlum olur ki, kök dil – aqlütinativ dil – flektiv dil quruluşları mərhələrəinin ardıcıllığı özünü bu kimi ilk baxışdan okkazial xarakterli görünən ontogenestik nitq xətalarında biruzə verir. Məhz, uşaq nitqi müşahidələri azyaşlının qrammatik quruluş elementlərinin mənimsəməsi zamanı okkazial səciyyəli tiploji modifikasiya proseslərinə rəvac verdiyini ortaya qoyur.

Məlum olur ki, uşaq nitqindəki tipoloji xarakterli xətalar bir mərhələ öncəsinə uyğunlaşmanı xatırladır. Bütün bunlar isə öz növbəsində onu sübuta yetirir ki, dil sisteminin özünün tipoloji identifikasiyasını digərinə dəyişməsi uzun və sistemin özü üçün yetərincə məşəqqətli prosesdir. Bu səbəbdən də sistemin bir tipoloji mərhələdən digərinə sıçrayışlı keçidi mümkünsüzdür. Aralıq formların ontogenestik prototipləri də bunu tam əyaniliklə sübuta yetirir. Filogenezdə də eyni proses müşahidə edilməkdədir: dil sisteminin tipoloji identifikasiyasının dəyişməsi ilk olaraq tipoloji modifikasiya proseslərinin kütləviləşməsi və bunun nəticəsi kimi, tipoloji sapma faktlarının determinanta elementlərinə (yəni, aparıcı tipoloji təmüyül elementlərinə) nisbətinin artması ilə müşayət olunur. İstər türk dillərinin kök dil quruluşu mərhələsindən müasir iltisaqiliyə keçidi ilə bağlı dil faktları, istər ingilis dilinin sintetik flektivlikdən analitik flektivliyə doğru dəyişimini ortaya qoyan linqvistik proseslər bu ehtimalların doğruluğuna şübhə yeri qoymur.

O, da diqqətdən yayına bilməz ki, eynən azyaşlı fərdlərdə olduğu kimi, daha böyük yaş qrupunu əhatə edən dil daşıyıcıları da tipoloji xarakterli nitq xətalarına yol verərkən, əksər hallarda bunu daha öncəki tipoloji quruluş "lehinə" edirlər. Fikirlərimizin təsdiqi üçün ikidilli və ya rusdilli azərbaycanlıların ana dilindəki nitqində yetərincə tez – tez müşahidə olunan şəkilçi reduklsiyası (və ya geniş kütlə arasındakı adı ilə desək, şəkilçi "yeyilməsi") hallarını xatırlatmaq kifayətdir. Müqayisə üçün deyək ki, şəkilçisiz və ya aqlütinativ dillərdə olduğu kimi, zəngin şəkilçi şəbəsi olmayan daha öncəki kök dil mərhələsində siffiksal – affiksal laylanma mümkünsüz idi.

Göründüyü kimi, yuxarıda qeyd edilənlər tipoloji təkamülün məntiqi ardıcıllığını anlamağa, bu ardıcıllığın fərqli interpretasiyada təqdimatının yanlışlığında əmin olmağa kömək etməklə bərabər, tipoloji modifikasiya proseslərinin mahiyyətinin bəzi aspektlərini dərk etməyə də yardımçı olur. Belə ki, məhz, biogenetik qanunun dilçilik elmi tərəfindən mənimsənilməsi ayrı – ayrı linqvistik araşdırmaların ortaya qoyduğu faktları vahid məntiqi ardıcıllıq “tablo”sunda sıralamağa imkan verdi. Və tipoloji modifikasiya prosesləri də, gözlənildiyi kimi, həmin ardıcıllıq silsiləsində özünə müvafiq aralıq pozisiyalarında bərqərar oldu. Bütün bunlar isə, birmənalı şəkildə heç bir elm sahəsinin, o cümlədən, dilçiliyin qapalı şəkildə inkişafının mümkünsüzlüyü həqiqətini bir daha təsdiqləmiş oldu.

## ƏDƏBİYYAT:

1. Hacıyeva A.Y. Linqvistik tipologiyada tipoloji modifikasiya problemi. Bakı, 2008, 282 s.
2. Levit, G.S., Hoßfeld, U., Naumann, B., Lukas, P., Olsson, L. The biogenetic law and the Gastraea theory: From Ernst Haeckel's discoveries to contemporary views // Journal of Experimental Zoology Part B Molecular and Developmental Evolution 338, pp. 13-27, 16 March 2021 https://onlinelibrary.wiley.com/doi/full/10.1002/jez.b.23039
3. McElvenny, J. August Schleicher and Materialism in 19th-Century Linguistics // Historiographia Linguistica, № 45 (1), August 2018 https://scispace.com/pdf/august-schleicher-and-materialism-in-19th-century-1q0zqq7lgs.pdf
4. Биогенетический закон http://www.psychologos.ru/articles/view/biogeneticheskiy_zakon
5. Биологизаторство // Толковый словарь обществоведческих терминов. Н.Е. Яценко. 1999) http://www.slovarnik.ru/html_tsot/b/biologizm-biologizatorstvo.html
6. Выготский Л.С., Лурия А.Р. Этюды по истории поведения Обезьяна. Примитив. Ребенок http://scepsis.net/library/id_1274.html
7. Кацнельсон С.Д. Язык поэзии и первобытно – образная речь (с. 86-107) // С.Д. Кацнельсон Общее и типологическое языкознание, Л.: Наука, 1986, 298 с.
8. Кодухов В. И.Введение в языкознание.М: Просвещение, 1987. 288 с.
9. Леви-Брюль Л. Сверхъестественное в первобытном мышлении. М.: Педагогика-Пресс, 1994. 608 с.
10. Леонтьев А.А. Возникновение и первоначальное развитие языка, М.: Изд-во Академии наук СССР, 1963. – 136 с.

11. Онтогенез // Мещеряков Б., Зинченко В. Большой психологический словарь http://www.gumer.info/bibliotek_Buks/Psihol/dict/14.php
12. Онтогенез // Психологический словарь http://psychology.net.ru/dictionaries/psy.html?word=595
13. *Рубинштейн С.Л.Основы общей психологии http://krotov.info/library/17_r/ub/inshteyn_3.html*
14. Садыкова Г.В. Порядок слов в филогенезе (этап зарождения и раннего развития языка) (с.110-117) // Русская и сопоставительная филология. Казань: Казан. гос. ун-т им. В.И.Ульянова-Ленина, 2004. – 244 с. http://old.kpfu.ru/f10/publications/2004/articles.php?id=7&num=19000000
15. *Слобин Д.И. Когнитивные предпосылки развития грамматики / Психолингвистика (сборник статей заребежных исследователей, ред. А.М.Шахнорович) М.: Прогресс, 1984, стр. 367 с.*
16. *Филогенез // Мещеряков Б., Зинченко В. Большой психологический словарь http://www.gumer.info/bibliotek_Buks/Psihol/dict/20.php*
17. *Филогенез // Психологический словарь http://psychology.net.ru/dictionaries/psy.html?word=1062*
18. *Шахнарович А.М., Юрьева Н.М. Психолингвистический анализ семантики и грамматики (на материале онтогенеза речи), М.: Наука, 1990, 1990, 168 с.*
19. *Якобсон Р.О. Детский язык, афазия и общие звуковые законы (первод с немецкого Ф.Ядигяр), Баку: Маариф, 1993, 96 с.*

**Айтен Юнис кызы Гаджиева**

## Биогенетический закон, идея стадиального развития и типологические модификации

В статье исследуется проблема типологических модификаций в свете данных, представленных биогенетическим законом и сопутствующей ему теории стадиального развития языков. Автор на основе многочисленных фактов приходит к выводу о том, что, типологические модификации органично вписываются в вышеназванную теорию, основанную на биогенетический закон, и тем самым косвенно подтверждают дееспособность этого закона. Оказывается, помимо того, что это помогает понять логическую последовательность типологической эволюции, убедиться в некорректности представления этой последовательности в различных интерпретациях, это также помогает понять некоторые аспекты сущности процессов типологической модификации. Так, именно «присвоение» биогенетического закона лингвистической наукой позволило упорядочить факты, выявленные отдельными лингвистическими исследованиями, в единую логическую последовательную «таблицу». А процессы типологической модификации, как и

ожидалось, заняли свои соответствующие промежуточные позиции в этой последовательности. Всё это, в свою очередь, однозначно подтвердило тот факт, что ни одна область науки, включая лингвистику, не может развиваться замкнутым образом.

**AYTEN YUNIS HAJIYEVA**

**BIOGENETIC LAW, THE THEORY OF STADIAL DEVELOPMENT AND TYPOLOGICAL MODIFICATIONS**

The paper deals with the problem of typological modifications in the light of the data produced by biogenetic law and the theory of stadial development that is based on / related to the law. On the basis of numerous facts, the author concludes that typological modifications organically fit in the theory and thereby indirectly corroborate the efficiency of the law. It turns out that, in addition to helping us understand the logical sequence of typological evolution and reassure ourselves of the inaccuracies of this sequence's various interpretations, it also helps us understand certain aspects of the nature of typological modification processes. Thus, it was precisely the “appropriation” of the biogenetic law by linguistic science that allowed us to organize the facts revealed by individual linguistic studies into a single, logical, consistent “table.” And the processes of typological modification, as expected, occupied their corresponding intermediate positions in this sequence. All of this, in turn, clearly confirmed the fact that no field of science, including linguistics, can develop in a closed, isolated manner.

**Rəyçi: filologiya elmləri doktoru,**
**professor Azad Məmmədov**